# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "İri və orta sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin baş mühasibləri tərəfindən peşəkar mühasib sertifikatının əldə edilməsinin müddətlərinin və ardıcıllığının müəyyən edilməsi haqqında" 2019-cu il 1 aprel tarixli 31 nömrəli, "Büdcə təşkilatlarında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, təbii qaz və su) istehlakına görə limitlərin müəyyən edilməsi və tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 29 aprel tarixli 53 nömrəli, "Naxçıvan Muxtar Respublikasında peşəkar mühasib təşkilatının akkreditasiya olunması Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 20 iyun tarixli 79 nömrəli, "Naxçıvan Muxtar Respublikasında özünüməşğulluğa cəlb olunmuş şəxsdən geri alınmış əmlakın açıq hərracda satılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 3 sentyabr tarixli 113 nömrəli, "Naxçıvan Muxtar Respublikasında artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları"nın təsdiq edilməsi barədə" 2019-cu il 16 oktyabr tarixli 150 nömrəli, "Naxçıvan Muxtar Respublikasında hərbi vəziyyət rejiminin təmin edilməsi və onun nəticələrinin aradan qaldırılması üçün görülən işlərin maliyyələşdirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2019-cu il 10 dekabr tarixli 167 nömrəli qərarlarının ləğv edilməsi və "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcə layihəsinin hazırlanması haqqında" 2025-ci il 30 yanvar tarixli 6s nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin IV hissəsini və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

1.1. "İri və orta sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin baş mühasibləri tərəfindən peşəkar mühasib sertifikatının əldə edilməsinin

müddətlərinin və ardıcıllığının müəyyən edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 aprel tarixli 31 nömrəli Qərarı;

1.2. "Büdcə təşkilatlarında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, təbii qaz və su) istehlakına görə limitlərin müəyyən edilməsi və tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 29 aprel tarixli 53 nömrəli Qərarı;

1.3. "Naxçıvan Muxtar Respublikasında peşəkar mühasib təşkilatının akkreditasiya olunması Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 iyun tarixli 79 nömrəli Qərarı;

1.4. "Naxçıvan Muxtar Respublikasında özünüməşğulluğa cəlb olunmuş şəxsdən geri alınmış əmlakın açıq hərracda satılması Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 sentyabr tarixli 113 nömrəli Qərarı;

1.5. "Naxçıvan Muxtar Respublikasında artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları"nın təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 oktyabr tarixli 150 nömrəli Qərarı;

1.6. "Naxçıvan Muxtar Respublikasında hərbi vəziyyət rejiminin təmin edilməsi və onun nəticələrinin aradan qaldırılması üçün görülən işlərin maliyyələşdirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 dekabr tarixli 167 nömrəli Qərarı.

2. "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcə layihəsinin hazırlanması haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci il 30 yanvar tarixli 6s nömrəli Sərəncamının 8.3-cü bəndində "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 29 aprel tarixli 53 nömrəli Qərarı ilə təsdiq edilmiş" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 164 nömrəli Qərarı ilə təsdiq edilmiş" sözləri ilə əvəz edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, " 28 " " aprel " 2025-ci il

№ 24